# Dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qrupları üçün 2019-2020-ci dərs ilinə aid tədris (məşğələ) planının təsdiqi barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

Azərbaycan Respublikasının dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qruplarında təhsil prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədi ilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.10-1-ci və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qruplarının 2019-2020-ci dərs ilinə aid tədris (məşğələ) planı və tədris (məşğələ) planına dair "Qeydlər" təsdiq edilsin (1 və 2 nömrəli əlavələr).

**2.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin əlavələrlə birlikdə "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**3.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının Təhsil naziri**

*12 iyul 2019-cu il*

---

*Azərbaycan Respublikası Təhsil nazirinin 12.07.2019-cu il tarixli, F-444 nömrəli əmrinə 1 nömrəli əlavə*

### 2019-2020-ci dərs ilinə dair dövlət ümumtəhsil məktəbinin məktəbəhazırlıq qrupu üçün tədris (məşğələ) planı

| № | Dərs məşğələləri | Həftəlik məşğələ saatlarının miqdarı |
|---|---|---|
| 1. | Ətraf aləmlə tanışlıq | 1 |
| 2. | Savad təliminə hazırlıq və nitq inkişafı | 2 |
| 3. | Bədii təfəkkürün inkişafı | 1 |
| 4. | Məntiqi və riyazi təfəkkürün inkişafı | 2 |
| 5. | Təsviri fəaliyyət | 2 |
| 6. | Musiqi | 2 |
| 7. | Fiziki mədəniyyət | 2 |
| | **Cəmi:** | **12** |

*Azərbaycan Respublikası Təhsil nazirinin 12.07.2019-cu il tarixli, F-444 nömrəli əmrinə 2 nömrəli əlavə*

### Tədris (məşğələ) planına dair qeydlər

**1.** Dövlət ümumtəhsil məktəblərində yaradılmış məktəbəhazırlıq qruplarına 5 yaşı həmin il tamam olan uşaqlar qəbul edilirlər.

**2.** Məktəbəhazırlıq qruplarında uşaqların sıxlığı aşağıdakı kimi müəyyənləşdirilir:

- qəsəbə və kəndlərdə yerləşən ümumtəhsil məktəbləri üçün – ən azı 10 uşaq;
- şəhərlərdə yerləşən ümumtəhsil məktəbləri üçün – ən azı 15 uşaq.

**3.** Dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qrupunda uşaqların sayının 30 nəfərdən artıq olmasına yol verilmir.

**4.** Məktəbəhazırlıq qruplarında məşğələlər oktyabrın 1-də başlayır və mayın 31-də başa çatır.

**5.** Məktəbəhazırlıq məşğələləri həftədə 4 (dörd) gün keçilir. Bir gün ərzində 3 (üç) məşğələ tədris olunur.

**6.** Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə müəyyən edilir. Zehni gərginlik tələb edən məşğələlərdə, bir qayda olaraq, 3 idman dəqiqəsi keçirilir.

**7.** Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlara ev tapşırıqları nəzərdə tutulmur.

**8.** Məktəbəhazırlıq qruplarında məşğələlərə davamiyyət və tədris olunan mövzu müvafiq sinif jurnalında qeyd edilir, uşaqların təlim nailiyyətləri şifahi formada qiymətləndirilir və bu barədə valideynlərə məlumat verilir.

**9.** Məktəbəhazırlıq qruplarında məşğələlər yalnız ibtidai sinif müəllimi ixtisaslı və müəyyən iş təcrübəsinə malik müəllim tərəfindən aparılır.

**10.** Məktəbəhazırlıq qruplarında dərs ili iki yarımilə bölünür:

- I yarımil: 1 oktyabr-26 yanvar;
- II yarımil: 1 fevral-31 may.

**11.** Dərs ili ərzində aşağıdakı tətillər müəyyən olunur:

- 5 gün payız tətili (16-20 noyabr);
- 5 gün qış tətili (27-31 yanvar);
- 5 gün əlavə tətil (1-5 may).

Azərbaycan müəllimi.- 2019.- 19 iyul.- S.6.